# AZƏRBAYCANIN SEÇİLMİŞ
# İSLAM ABİDƏLƏRİ

Selected Islamic Monuments of Azerbaijan



AZƏRBAYCAN RESPUBLİKASI
DİNİ QURUMLARLA İŞ ÜZRƏ
DÖVLƏT KOMİTƏSİ

BAKI / BAKU 2015



"Biz heç vaxt öz dinimizi, tariximizi, milli-mənəvi dəyərlərimizi unutmamalıyıq. Onları yaşatmaq, onlardan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir".

**Ümummilli Lider Heydər Əliyev**

*"We must never forget our religion, history, national and moral values. Keeping them alive, takinge advantage of and being inspired by them are the main course and guarantee of our perspective works".*

**National Leader Heydar Aliyev**



"Biz bütün işləri möhkəm təməl üzərində, dəyərlər üzərində qururuq. Milli-mənəvi dəyərlər bizim üçün hər şeydən üstündür. Biz öz dini və milli ənənələrimizə sadiqik. Bu möhkəm təməl üzərində müasir dövlət, müasir Azərbaycan qururuq".

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**

*"We build our work on a solid foundation and values. Our national and moral values are above all for us. We are faithful to our religious and national traditions. We build modern state, modern Azerbaijan on this foundation".*

**The President of the Republic of Azerbaijan Ilham Aliyev**

# AZƏRBAYCANIN SEÇİLMİŞ İSLAM ABİDƏLƏRİ

## SELECTED ISLAMIC MONUMENTS OF AZERBAIJAN

M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası

1104-i

BAKI 2015 BAKU

938

# Ön söz

Qədim və zəngin tarixə malik olan, Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan mədəniyyətlərin və dinlərin qaynayıb-qarışdığı unikal məkandır. Azərbaycan həm də dünyada etnik və dini tolerantlıq ənənələrini yaşadan zəngin ölkə və bu sahədə örnək model kimi qəbul edilən nümunəvi dövlətdir. Bunun ən bariz sübutu ölkə ərazisində İslam abidələri ilə yanaşı, müxtəlif dinlərə aid abidələrin, məbədlərin, ibadətgahların dövlət və cəmiyyət tərəfindən həssaslıqla qorunmasıdır. Əslində, Azərbaycan ərazisində yerləşən müxtəlif dinlərə aid məbədlərin birgə yanaşı fəaliyyət göstərməsi xalq arasında tolerantlıq və multikulturalizm ənənəsinin tarix boyu mövcudluğundan, xalqımızın milli xarakterinin ayrılmaz hissəsi olduğundan xəbər verir.

Odlar Yurdu bəşər sivilizasiyasına, eyni zamanda İslam mədəniyyətinə öz incəsənəti, ədəbiyyatı və memarlığı ilə böyük töhfələr verməklə yanaşı, həm də dünya mədəniyyətindən milli xüsusiyyətimizlə, mentallığımızla səsləşənləri əxz etmişdir. Bu səbəbdəndir ki, İslam dini Vətənimizdə yayıldıqdan sonra təkcə xalqımızın dini düşüncəsinə deyil, mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına, memarlığına və adət-ənənələrinə də təsir göstərmişdir. Müsəlman olmuş digər xalqlar kimi, Azərbaycan xalqı da İslam mədəniyyətinin inkişafına öz töhfəsini vermiş, dünyaya görkəmli alimlər, şairlər, memarlar bəxş etmişdir. Təsadüfi deyil ki, qədim kökləri ilə tanınan və tarixin müxtəlif dövrlərində böyük sivilizasiyalara aid mədəni irsin daşıyıcısı olmuş Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyalar, o cümlədən əsrlər boyu formalaşdırdığı milli-mənəvi dəyərlər sistemi etibarilə dünya xalqları arasında özünəməxsusluğu ilə tanınır və seçilir.

İslam dünyasına Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Seyid Yəhya Bakuvi, Mir Həmzə Nigari kimi böyük şəxsiyyətlər bəxş etmiş Azərbaycanın dünya mədəni irsinə ərməğan etdiyi maddi dəyərlər arasında dini abidələr, o cümlədən məscidlər xüsusi yer tutur. Azərbaycanın maddi-mənəvi xəzinəsi, tarixi yaddaşı olan bu ibadət ocaqları həm də zəngin İslam aləminin əzəmətli inciləri sırasındadır. Onlar Azərbaycanın mənəvi-tarixi yaddaşı, xalqımızın təfəkkürünün özünüifadəsidir.

Keçmişi öyrənmək, gələcəyi qorumaq üçün bu məscidlər böyük sərvət, əvəzsiz mirasdır. Çoxşaxəli və rəngarəng İslam mədəniyyəti nümunələri arasında memarlıq quruluşuna görə özünəməxsusluğu ilə seçilən Azərbaycan məscidləri, təəssüf ki, zaman-zaman repressiya, məhdudiyyət və qadağalarla üzləşmiş, lakin xalqımız bütün çətinliklərə baxmayaraq, içindəki həm Allah sevgisini, həm də məscidə ehtiram hissini daim qorumuş, nəsildən-nəslə ötürmüşdür. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Ümummilli Lider Heydər Əliyevin tarixi missiyası nəticəsində mənəvi ocaqlarımızın, məscid və ziyarətgahlarımızın da intibah dövrü başlamış, onillər boyu qapalı qalmış, təyinatı dəyişdirilmiş, uçub-dağılmış dini ibadət ocaqları təmir və bərpa edilərək yenidən dindarların istifadəsinə verilmişdir. Ulu Öndər Heydər Əliyev bu məsələni dövlət-din siyasətinin tərkib hissəsi hesab edir və xalqın milli-mənəvi dəyərlərə qayıdışının göstəricisi kimi dəyərləndirirdi. Onilliklər, yüzilliklər keçəcək, lakin hər dəfə tarixi-dini abidələrimiz dövlətimiz tərəfindən bərpa olunarkən bu işlər Heydər Əliyev siyasətinin davamı kimi qiymətləndiriləcək və müdrik, uzaqgörən şəxsiyyətin vaxtı ilə Bakıdakı Bibiheybət ziyarətgahında söylədiyi sözləri xatırlanacaqdır: *"Əmin ola bilərsiniz ki, bütün imkanlardan istifadə ediləcək, nəinki bu müqəddəs yer, həm də Azərbaycan xalqının tarixini, milli, dini ənənələrini əks etdirən bütün abidələr, ocaqlar, müqəddəs yerlər bərpa olunacaqdır. Bunu biz sizinlə birgə edəcəyik. Bizim görə bilmədiyimiz işləri gələcək nəsillər, davamçılarımız yerinə yetirəcəklər. Buna heç şübhəniz olmasın. Əmin olun ki, biz birləşib müstəqilliyimizi, torpaqlarımızı qoruyacaq, həm də xalqımızın yaratdığı tarixi abidələri, ənənələri yaşadacağıq".*

Ulu Öndərimizin bu müdrik sözləri çox keçmədən həqiqətə çevrildi. Onun alternativsiz siyasi xəttini uğurla və uzaqgörənliklə həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev digər sahələrdə olduğu kimi, bu sahədə də Ulu Öndərin arzularını həqiqətə çevirdi. Prezident İlham Əliyev tarixi-dini abidələrin bərpası məsələsini hər zaman diqqət mərkəzində saxlayıb, bu sahəyə diqqət və qayğısını heç vaxt əsirgəməyib. Dövlət başçısının dəstək və himayəsi ilə son illər ərzində Bakıda Bibiheybət, Təzəpir, Əjdərbəy, İçərişəhər Cümə, Sınıq qala, Şamaxı Cümə məscidləri kimi böyük tarixə malik dini abidələrimizin təmir-bərpa olunaraq yenidən qurulması, paytaxtımızda Qafqazın ən böyük dini ibadət ocağının – Heydər məscidinin inşa edilməsi həm Azərbaycan xalqının çoxəsrlik inanc sisteminin, həm

dövlətimizin milli-mənəvi dəyərlərə verdiyi əhəmiyyətin, həm də Ulu Öndər Heydər Əliyev irsinə münasibətin bariz göstəricisidir. Bu işlərin həyata keçirilməsində Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti də xüsusi vurğulanmalıdır. Məhz Fondun maliyyə dəstəyi ilə Daşkəsəndəki Cümə məscidində, Xəzər rayonu, Binə qəsəbəsindəki Möhsin Səlim və İmam Rza məscidlərində, Mərdəkan qəsəbəsindəki Pirhəsən ziyarətgahı və Heydər məscidində, Buzovna qəsəbəsindəki Cümə məscidində, Gəncə şəhərindəki Şah Abbas və Həzrət Zeynəb məscidlərində yenidənqurma və əsaslı təmir işləri aparılaraq xalqın istifadəsinə verilmişdir.

Hazırda Azərbaycan ərazisində 2500-ə yaxın məscid, 13 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Bununla yanaşı, qeyd edək ki, Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində 876 tarixi, mədəni və dini abidə qalmışdır. Bunlardan 87-si məscid, 68-i türbə, 31-i isə Qafqaz Alban kilsəsinə aid məbəddir. İşğal altında olan bu abidələrin, demək olar ki, hamısı məhv edilmiş, eyni zamanda indiki Ermənistan ərazisindəki Azərbaycan xalqına məxsus minlərlə tarixi-mədəni abidə dağıdılmışdır.

Yaşı yüzilliklərlə ölçülən tarixi-dini abidələrimiz, o cümlədən məscid, kilsə və sinaqoqlarımız keçmişdən bizə qalan ən böyük sərvətimiz, dövlət tərəfindən onların bərpası və yenidən qurulması isə gələcək nəsillərə ötürdüyümüz ən böyük mənəvi mirasımızdır. Azərbaycan dövləti tarixi məscidlərlə yanaşı, kilsə və sinaqoqları da bərpa etməklə həm keçmişinə dəyər verir, həm gələcək nəsillərə yol göstərir, həm də bu sahədə dünyaya tolerant və multikultural örnək model təqdim edir.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən ərsəyə gətirilən bu fotoalbom Azərbaycan ərazisindəki qədim tarixə malik, ümumbəşəri irs nümunələri sırasında yer alan təkrarolunmaz İslam incilərinin - məscidlərimizin beynəlxalq aləmdə tanıdılması məqsədilə edilən kiçik bir cəhddir. Ümidvarıq ki, bu nəşr həm Azərbaycan, həm də əcnəbi oxuculara ölkəmizin İslam inciləri barədə məlumat verəcək, maddi-mənəvi dəyərlərimizin təbliği istiqamətində faydalı olacaqdır.

**Mübariz Qurbanlı,**
**Azərbaycan Respublikası**
**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri**



*Ümummilli Lider Heydər Əliyev Bibiheybət məscidinin təməlqoyma mərasimində. Bakı, 23 iyul 1997-ci il*

*National Leader Heydar Aliyev at the groundbreaking ceremony of Bibiheybat Mosque. Baku, 23 July 1997*





Ümummilli Lider Heydər Əliyev Təzəpir məscidində dindarlarla görüşdə. Bakı, 26 mart 1995-ci il

Meeting of National Leader Heydar Aliyev with the believers in Tazapir Mosque. Baku, 26 March 1995

Prezident İlham Əliyev Bibiheybət məscidinin bərpasından sonra açılış mərasimində. Bakı, 12 iyul 2008-ci il

President Ilham Aliyev at the opening ceremony following the restoration of Bibiheybat Mosque. Baku, 12 July 2008



*Prezident İlham Əliyev Təzəpir məscidində.*
*Bakı, 6 iyul 2009-cu il*

*President Ilham Aliyev in Tazapir mosque.*
*Baku, 6 July 2009*



Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Buzovna Cümə məscidində. Bakı, 19 dekabr 2009-cu il

President Ilham Aliyev and Mrs Mehriban Aliyeva in Buzovna Juma Mosque. Baku, 19 December 2009



*Prezident İlham Əliyev ailə üzvləri ilə birgə Heydər məscidinin açılışında. Bakı, 26 dekabr 2014-cü il*

*President Ilham Aliyev attends the opening ceremony of the Heydar Mosque with his family members Baku, 26 December 2014*



*Prezident İlham Əliyev Heydər məscidinin açılışında nitq söyləyərkən. Bakı, 26 dekabr 2014-cü il*

*President Ilham Aliyev speaks at the opening of the Heydar Mosque. Baku, 26 December 2014*



*Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində. Bakı, 12 iyul 2015-ci il*

*President Ilham Aliyev attends the Iftar ceremony on the occasion of the holy month of Ramadan. Baku, 12 July 2015*



Prezident İlham Əliyev və ailə üzvləri
Məkkədə ümrə ziyarətində.
Məkkə, 7 aprel 2015-ci il

President Ilham Aliyev and his family
performed Umrah pilgrimage in Mecca.
Mecca, 7 April 2015

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

# Foreword

Azerbaijan is a country with rich and ancient history. The geographical location of the country makes it a landmark of cultures and religions. It is widely accepted that Azerbaijan is a model state with deep-rooted traditions in ethnic and religious tolerance. The high-level preservation of different religious monuments and temples by the state and communities is an obvious example of these traditions. In fact, the presence of different religious monuments in the territory of Azerbaijan confirms the existence of deeply entrenched tolerance and multiculturalism traditions as an integral part of national discourse throughout the history.

Commonly referred to as "the Land of Fire" – Azerbaijan has contributed to the development of civilization and Islamic culture with its art, literature and architecture as well as with universal cultural values harmonized with our national features and values. The religious thoughts of Azerbaijanis has changed after adoption of Islam, and the spread of religion within country influenced its culture, art, literature, architecture and national traditions. Along with other Muslim nations, Azerbaijanis contributed to the development of Islamic culture as well, which is reflected in a variety of spheres. Azerbaijani nation enjoys a unique place among the world`s nations by virtue of the ideas of humanity which is traditionally maintained, as well as through a system of national and spiritual values fortified throughout centuries. Thus, our nation is perceived as an advocate of universal ideology and a champion of the system of ancient national and spiritual values.

The religious monuments such as mosques have a significant place among other treasures in Azerbaijan which bestowed great authors to the Muslim world such as Nizami Ganjavi, Mahammad Fuzuli, Imadeddin Nasimi, Seyid Yahya Bakuvi and Mir Hamza Nigari. Some religious places of Azerbaijan are among magnificent masterpieces of Islamic world. They are interpretations of moral and historical memory and mentality of our nations.

These mosques are invaluable heritage in terms of learning past and protecting future. Unfortunately, mosques of Azerbaijan, beautiful specimens of the diverse and colorful Islamic culture, as well as religious beliefs of the nations faced repressions, restrictions and prohibitions from time to time, while love for Allah and sense of respect to the mosques passed through the generations. However, with the arrival of the National Leader Heydar Aliyev, places of pilgrimages were rediscovered, and the religious monuments that were destroyed or remained closed for decades, were renovated and restored again after Azerbaijan gained its independence. National Leader Heydar Aliyev considered these initiatives as an integral part of state-religion policy and viewed it as an expression of the national and spiritual values. Although decades and centuries have passed, restoration of historical and religious monuments by the state are evaluated as a course of political ideology of Heydar Aliyev and words of this wise and far-sighted person said in the Bibiheybat mosque will be always remembered: "It is for sure that, all the efforts will be made not to restore only this holy place but also all monuments, places and temples which reflect the history, national, religious traditions of people. All these works will be done with your help and will be continued by the next generations and our successors. There is no doubt that we will be unified to protect our land and historical monuments, as well as to keep our national traditions alive".

All objectives were achieved as soon as possible due to the contributions of time and energy by our National Leader. His unique political mission covering all sectors and areas is successfully continued by the President of the Republic of Azerbaijan Mr Ilham Aliyev. The renovation and restoration of religious buildings have been always on the agenda of President Ilham Aliyev and his supervision on this area is maintained. In recent years, reconstruction of ancient historical and religious monuments such as Bibiheybat, Tazapir, Ajdarbay, Icheri Sheher Juma, Sinig Gala, Shamakhi Juma mosque, construction of Heydar Mosque - the biggest mosque in the Caucasus- by the support and guardianship of President are not only good examples of centuries old belief system, state support of national and spiritual values but also successfull fulfilment of National Leader`s legacy. A special mention should be given to the activities of the Heydar Aliyev Foundation led by the First Lady of Azerbaijan Mrs Mehriban Aliyeva in this field. Likely, fundamental reconstruction of Juma Mosque in Dashkasan, Mohsun Salim and Imam Rza mosques in the Bine settlement of Khazar district, Pir Hasan Shrine in the Mardakan settlement, Heydar Mosque, Juma mosque in the settlement

of Buzovna, Shah Abbas and Hazrat Zeynab mosques in Ganja city have been carried out and given to the services of believers by the financial support of the Heydar Aliyev Foundation.

Today up to 2500 mosques, 13 churches and 7 synagogues are functioning in Azerbaijan. It should also be noted that 876 historical, cultural and religious monuments remained in the Azerbaijani territories occupied by Armenia. 87 of them were mosques, 68 tombs and 31 Caucasian Albanian temples. Almost all of the monuments under occupation have been destroyed, as well as thousands of historical and cultural monuments that belong to Azerbaijani people have been demolished in the present territory of Armenia.

Our centuries old historical and religious monuments including mosques, churches and synagogues are our biggest wealth remaining from the past and their reconstruction and renovation by the state are our biggest moral heritage for the future generations. Azerbaijan protects its history, forwards in the right direction the future generations by being a role model of multiculturalism and tolerance to the world.

This photoalbum prepared by the State Committee on Religious Associations of the Republic of Azerbaijan is a humble attempt to popularize ancient and unique Islamic pearls of Azerbaijan – our mosques in the world. We hope that this book will serve as a source of valuable information for the readers about pearls of Islam in Azerbaijan and will be useful for the propagation of our material and spiritual values.

**Mubariz Gurbanli**
**Chairman of the State Committee on Religious Associations of the Republic of Azerbaijan**

# AZƏRBAYCANIN SEÇİLMİŞ İSLAM ABİDƏLƏRİ

## FOTOALBOM

# SELECTED ISLAMIC MONUMENTS OF AZERBAIJAN

## PHOTOALBUM

BAKI ŞƏHƏRİ, BİNƏQƏDİ RAYONU

## HEYDƏR MƏSCİDİ

Qafqazın ən böyük məscidi olan bu ibadət evi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyır. Onun inşasına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2012-ci ildə başlanılmış və 26 dekabr 2014-cü ildə rəsmi açılışı olmuşdur. Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri açılış mərasimində iştirak etmişlər.
Fasadı Şirvan-Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənmiş məscidin hündürlüyü 95 metr olan 4 minarəsi var.

BAKU, BINAGADI DISTRICT

## HEYDAR MOSQUE

Being the largest mosque of the Caucasus, it is dedicated to National Leader Heydar Aliyev. Its construction started under the decree of President Ilham Aliyev in 2012, and the official opening was held on December 26, 2014, with the participation of President Ilham Aliyev, First Lady Mehriban Aliyeva and presidential family members.
The mosque covered with special stones in Shirvan-Absheron architectural style has four minarets of 95 meters height.













BAKI ŞƏHƏRİ, SƏBAİL RAYONU

## BİBİHEYBƏT MƏSCİD-ZİYARƏTGAH KOMPLEKSİ

VII-VIII əsrlərin yadigarı olan Bibiheybət ziyarətgahında İmam Museyi-Kazımın (ə) qızı, səkkizinci imam Rzanın (ə) bacısı Həzrət Həkimənin məzarı yerləşir. Ziyarətgah 1934-cü ildə Sovet hakimiyyəti tərəfindən tamamilə dağıdılmışdı. Onun bərpasına Ümummilli Lider Heydər Əliyev tərəfindən 1997-ci ildə başlanılmış, Prezident İlham Əliyev tərəfindən yenidən qurulması tam başa çatdırılmış və 12 iyul 2008-ci ildə məscidin bütöv bir kompleks kimi açılışı olmuşdur.

BAKU, SABAYIL DISTRICT

## BIBIHEYBAT MOSQUE AND SHRINE

The 7th-8th century shrine is the burial ground of Hazrat Hakima, daughter of the seventh Shi'ite Imam Museyi-Kazim (P.B.U.H.), and sister of the eighth Imam Rza (P.B.U.H.). The shrine was completely demolished in 1934 by the Soviet regime. Its reconstruction was initiated by National Leader Heydar Aliyev in 1997, and was completed by President Ilham Aliyev. The grand opening ceremony of the mosque complex was held on July 12, 2008.













BAKI ŞƏHƏRİ, YASAMAL RAYONU

## TƏZƏPİR MƏSCİDİ

Azərbaycanın memarlıq incilərindən olan Təzəpir məscidinin tikintisinə 1905-ci il iyulun 23-də - Məbəs bayramı günündə başlanılmış, 1914-cü ildə sona çatdırılmışdır. Düz yüz ildən sonra – 2005-ci ildə Prezident İlham Əliyevin tapşırığı ilə məscidin bərpası lahiyəsi hazırlanmış və yenidənqurma işlərindən sonra 6 iyul 2009-cu ildə rəsmi açılış mərasimi olmuşdur.

BAKU, YASAMAL DISTRICT

## TEZEPIR MOSQUE

Construction of a gem of the Azerbaijani architecture, Tezepir Mosque started on July 23, 1905, the day of the Mabas holiday (Prophet Muhammad's [P.B.U.H] revelation day), and was completed in 1914. Exactly a hundred years later, in 2005, a decree on the renovation of the mosque was issued by President Ilham Aliyev and the official opening ceremony was held on July 6, 2009.











BAKI ŞƏHƏRİ, NƏSİMİ RAYONU

## HACI ƏJDƏRBƏY MƏSCİDİ

Xeyriyyəçi Hacı Əjdərbəy Aşurbəyovun vəsaiti hesabına 1912–1913-cü illərdə inşa edilmiş məscid xalq arasında "Göy məscid" kimi də tanınır. Məscid Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə əsaslı təmir-bərpa edilmiş və 22 dekabr 2011-ci ildə açılış mərasimi keçirilmişdir.

BAKU, NASIMI DISTRICT

## HAJI AZHDARBAY MOSQUE

The mosque known as "Blue Mosque" among people was constructed by the benefactor and philanthropist Haji Ajdarbey Ashurbeyov in 1912-13. It was fundamentally renovated by the decree of the Azerbaijani President Ilham Aliyev and opened on December 22, 2011.





BAKI ŞƏHƏRİ, SƏBAİL RAYONU, İÇƏRİŞƏHƏR

## CÜMƏ MƏSCİDİ

İçərişəhərin nadir memarlıq incilərindən olan Cümə məscidi 1899-cu ildə Bakı milyonçusu Hacı Şeyxəli Dadaşov tərəfindən inşa edilmişdir. Sovetlər dövründə Xalça muzeyi kimi fəaliyyət göstərən məsciddə 2008-ci ildə dövlət hesabına əsaslı təmir-bərpa işləri aparılmış və dindarların istifadəsinə verilmişdir.

BAKU, THE OLD CITY

## THE JUMA MOSQUE

The Juma mosque, one of the rare pearls of architecture of the Old City was built by millionnaire Haji Sheikhali Dadashov in 1899. The mosque which was functioning as a carpet museum in the Soviet era underwent thorough repair and renovation with government funding and was opened for the believers in 2008.





BAKI ŞƏHƏRİ, SƏBAİL RAYONU, İÇƏRİŞƏHƏR

## MƏHƏMMƏD (SINIQ QALA) MƏSCİDİ

Məscid, daş kitabəsindən də məlum olduğu kimi, 1078-1079-cu ildə inşa olunmuşdur. Rus çarı I Pyotrun artilleriyasının 26 iyun 1723-cü ildə Bakını atəşə tutması nəticəsində ibadət evinin minarəsi zədələnmişdir. Top mərmisinə qala bürcü kimi dözən minarəyə el arasında "Sınıq qala" adı verilmişdir.

BAKU, THE OLD CITY

## MUHAMMAD (SINIG GALA) MOSQUE

Muhammad (Sinig Gala) mosque, was built in 1078-1079 according to the inscription on a stone slab. The minaret of the mosque was damaged by the artillery of the Russian Czar Peter the Great. Therefore, local people called the mosque "Sinig Gala" – "Damaged Castle".









BAKI ŞƏHƏRİ, XƏZƏR RAYONU, BUZOVNA QƏSƏBƏSİ

## CÜMƏ MƏSCİDİ

1896-cı ildə inşasına başlanan məscidin tikintisi fasilələrlə 1918-ci ilə kimi davam etsə də, tam yekunlaşmamışdır.
Heydər Əliyev Fondu tərəfindən 2007-ci ildə məsciddə yenidənqurma işlərinə başlanılmış, 19 dekabr 2009-cu ildə istifadəyə verilmişdir.

BAKU, KHAZAR DISTRICT, BUZOVNA SETTLEMENT

## JUMA MOSQUE

Construction of the mosque began in 1896 and continued up to 1918 with breaks but left unfinished. The restoration was resumed in 2007 and the mosque was reopened on December 19, 2009.







يا رحيم
يا فاطمة
يا حسين

BAKI ŞƏHƏRİ, XƏZƏR RAYONU, ŞÜVƏLAN QƏSƏBƏSİ

## MİR MÖVSÜM AĞA ZİYARƏTGAH KOMPLEKSİ

Hazırda məscid-ziyarətgah kompleksi kimi fəaliyyət göstərən bu ocaqda Ağa Seyidəli Mir Abutalıb oğlu Mir Mövsümzadənin türbəsi yerləşir.
Xalq arasında "Ətağa" adı ilə məşhurlaşmış Ağa Seyidəli Mir Mövsümzadə hələ sağlığında əfsanəvi nüfuza malik olmuş, insanlara təskinlik, inam, mənəvi qüvvə təlqin etmiş və xeyirxahlığı ilə tanınmışdır. 1883-cü ildə dünyaya göz açan Mir Mövsümzadə uzun illər İçərişəhərdə yaşamışdır. O, 1950-ci ildə vəfat etmiş və Şüvəlanda dəfn olunmuşdur.

BAKU, KHAZAR DISTRICT, SHUVELAN SETTLEMENT

## MIR MOVSUM AGHA SHRINE COMPLEX

This mosque and shrine complex is the tomb of Aga Seyidali Mir Abutalib oglu Mir Movsumzade.
Popularly known as "Ataga" ("Boneless"), Aga Seyidali Mir Movsumzade gained legendary status in his lifetime through his natural ability to help people, make them strong in their faith and give them moral comfort and support. Aga Seyidali Mir Movsumzade was born in 1883, lived in Baku's Old City for a long time and died in 1950. He was buried in Shuvelan.












BAKI ŞƏHƏRİ, SABUNÇU RAYONU, NARDARAN QƏSƏBƏSİ

## RƏHİMƏ XANIM MƏSCİD-ZİYARƏTGAH KOMPLEKSİ

Səkkizinci imam Rzanın (ə) bacısı Rəhimə xanımın məzarı olan məscid-ziyarətgah kompleksi Bakının Nardaran kəndindədir. Ziyarətgah təbiət hadisələri ilə əlaqədar uzun müddət torpağın altında qalmış, XX əsrin əvvəllərində kənd sakini Şeyx Yunisin təşəbbüsü ilə bərpa olunmuşdur. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Nardaran ziyarətgahında geniş quruculuq və abadlıq işləri aparılmış, möhtəşəm məscid ucaldılaraq dindarların istifadəsinə verilmişdir.

BAKU, SABUNCHU DISTRICT, NARDARAN SETTLEMENT

## RAHIMA KHANIM MOSQUE-SHRINE COMPLEX

Rahima khanim (sister of eight İmam Reza (P.B.U.H.) of Shiites) mosque-shrine complex which enshrined her grave is located in Nardaran village of Baku. The shrine remained under ground due to natural disasters and was repaired by the initiative of local resident Sheikh Yunis in the early 20th century. After Azerbaijan restored its independency the shrine underwent fundamental repair and construction and opened for believers.











BAKI ŞƏHƏRİ, SURAXANI RAYONU, ƏMİRCAN QƏSƏBƏSİ

## QOŞAMİNARƏLİ MƏSCİD

Məscid Bakı milyonçusu Murtuza Muxtarov tərəfindən 1908-ci ildə inşa etdirilmişdir. Bu səbəbdən xalq arasında ona "Murtuza Muxtarov məscidi" də deyirlər.

Murtuza Muxtarov 1920-ci ildə Bakıda evinə soxulmuş bolşevik əsgərlərinə qarşı fədakarcasına vuruşaraq həlak olmuş və özünün tikdirdiyi Qoşaminarəli məscidin həyətində torpağa tapşırılmışdır.

BAKU, SURAKHANI DISTRICT, AMIRJAN SETTLEMENT

## TWIN-MINARET MOSQUE

The Twin-Minaret Mosque was built in 1908 by a millionaire Murtuza Mukhtarov and therefore is called "Murtuza Mukhtarov mosque" among the people.

Murtuza Mukhtarov died bravely fighting the Bolsheviks that broke in to his home in Baku in 1920 and was buried in the courtyard of the Twin-Minaret Mosque he had erected in his life.










ABŞERON RAYONU, MEHDİABAD QƏSƏBƏSİ

## MEHDİABAD MƏSCİDİ

Bu ibadət evi 2000-ci ildə Türkiyə Diyanət Vəqfinin vəsaiti hesabına tikilmişdir. Ənənəvi Osmanlı memarlıq üslubunda inşa edilmiş məscidin hündürlüyü 35 metr olan iynəuclu minarəsi var.

ABSHERON, MEHDIABAD SETTLEMENT

## MEHDIABAD MOSQUE

This house of prayer was built by Turkey's Department of Religious Affairs in 2000. The mosque, built in traditional Ottoman architectural style, has a 35 metres high pointed minaret.





ABŞERON RAYONU, NOVXANI QƏSƏBƏSİ

## HACI SƏFƏRALI MƏSCİDİ

Məscid 1865-ci ildə usta Ağa Məhəmməd Qulu oğlu tərəfindən kiçik təkiyə kimi tikilmiş, 1904-cü ildə kənd sakini Hacı Səfərəli buranı genişləndirmişdir. Sovetlər dönəmində fəaliyyəti dayandırılan məsciddən kolxozun taxıl anbarı kimi istifadə olunmuşdur. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra yenidən məscid kimi fəaliyyət göstərməyə başlamışdır.

ABSHERON, NOVKHANI SETTLEMENT

## HAJI SAFARALI MOSQUE

The mosque was built in 1865 by master craftsman Aga Muhammad Gulu oglu as a small takia (Dervish lodge). Later, in 1904, it was expanded by the villager Haji Safarali. The mosque was closed down in Soviet times and was used as a grain store for a collective farm. The mosque was opened after Azerbaijan regained its independence.








SUMQAYIT ŞƏHƏRİ

## CÜMƏ MƏSCİDİ

İnşasına 1991-ci ildə şəhər sakinlərinin vəsaiti hesabına başlanmışdır. Fəaliyyət göstərdiyi müddət ərzində məsciddə dəfələrlə yenidənqurma və təmir işləri aparılmışdır. 2011-ci ilin iyulunda Prezident İlham Əliyev burada olmuş və onun tapşırığına əsasən, məscid əsaslı təmir edilmişdir.

SUMQAYIT

## JUMA MOSQUE

The mosque was built with the local community's funding in 1991. It was repaired several times during its operation. President Ilham Aliyev visited the mosque on July, 2011 and issued a decree on renovation of the mosque.





SALYAN ŞƏHƏRİ

## CÜMƏ MƏSCİDİ

Əhali arasında "Böyük məscid" kimi tanınan ibadət evi 1865-ci ildə inşa edilmişdir. Sovet hakimiyyəti illərində ondan anbar kimi istifadə olunmuşdur. 1992-ci ildən isə məscid kimi fəaliyyət göstərir.
2010-cu ilin fevralından məsciddə təmir-bərpa işlərinə başlanılmış, nəzərdə tutulan vaxtda başa çatdırılmışdır. Azərbaycan Prezidenti İlham Əliyev 13 mart 2012-ci ildə Salyan rayonuna səfəri çərçivəsində əsaslı təmir və bərpa edilmiş Cümə məscidi ilə tanış olmuş və görülən işləri yüksək qiymətləndirmişdir.

SALYAN

## JUMA MOSQUE

Commonly referred to as the Great Mosque, Salyan's Juma Mosque was built in 1865. It was used as a warehouse during the Soviet era and started to function as a mosque in 1992.
In February 2010, the renovation of the mosque was started. President Ilham Aliyev visited the newly renovated and restored Juma Mosque during his visit to Salyan on March 13, 2012, and gave high praise to the work done.









SABİRABAD ŞƏHƏRİ

## HEYDƏR MƏSCİDİ

Ulu Öndər Heydər Əliyevin adını daşıyan məscidin tikintisinə şəhər əhalisinin təşəbbüsü ilə 1990-cı ildə başlanılmış, müəyyən müddətdən sonra yetərincə vəsait olmadığından inşaat işləri dayandırılmışdır. Yarımçıq qalmış tikinti 1999-cu ildə davam etdirilmiş, 18 noyabr 2008-ci ildə məscidin açılışı olmuşdur.

SABIRABAD

## HEYDAR MOSQUE

The construction of the mosque bearing the name of the National Leader Heydar Aliyev initially started in 1990 at the local community's initiatives, but work stopped halfway in 1999 due to a lack of funds. Construction subsequently resumed and the mosque opened its doors on November 18, 2008.







BEYLƏQAN RAYONU

## CƏRCİS PEYĞƏMBƏR MƏSCİD-ZİYARƏTGAH KOMPLEKSİ

Kompleks Beyləqan şəhəri yaxınlığında, Şəfəq qəsəbəsində yerləşir. Rəvayətə görə, dörd dəfə cahil və zalım şah tərəfindən işgəncə ilə öldürülən və hər dəfə Allah tərəfindən yenidən xəlq edilən Cərcis peyğəmbər burada dəfn edilmişdir.

BEYLAQAN

## JARJIS PEYGAMBER (PROPHET GEORGE) MOSQUE AND SHRINE COMPLEX

